# Sağlam gələcək, "yaşıl dünya" naminə...

## COP29 müzakirələr baxımından yeni tribunadır

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 bu ilin noyabrında Azərbaycanda keçiriləcək. Prezident İlham Əliyevin tapşırığına əsasən, artıq konfransla bağlı işlərə başlanılıb. Eyni zamanda, dövlət başçısının sərəncamına əsasən, 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.**

Bu gün dünyanı narahat edən ətraf mühit, qlobal istiləşmə, havanın keyfiyyəti ilə bağlı bir sıra məsələlər mövcuddur. Bunlar, təbii ki, yalnız bir ölkənin deyil, ümumilikdə Yer kürəsindəki bütün dövlətlərin problemidir. Bu baxımdan planetimizi gözləyən təhlükələrin qarşısının alınması istiqamətində uzun illərdir müəyyən qaydalar əsasında konvensiyalar təsdiqlənib və bununla da ölkələr üzərlərinə müəyyən öhdəliklər götürüblər.

Azərbaycan da sağlam gələcək, "yaşıl dünya" naminə daim lazımi tədbirlər görür, bu istiqamətdə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Ölkəmiz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub və 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir.



2050-ci ilə qədər isə bu miqdarın 40 faiz azaldılması planlaşdırılır.

Həmçinin torpaqlarımız işğaldan azad olunduqdan sonra həmin ərazilər "yaşıl enerji zonası" elan edilib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulub. Azərbaycanın bu istiqamətdə gördüyü işlər nəzərə alınaraq COP29-un ölkəmizdə keçirilməsi bir çox ölkə tərəfindən dəstəklənib.

COP-un miqyasına görə dünyanın ən böyük tədbiri olduğunu deyən Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, bu konfransda müzakirə edilən məsələlər qlobal xarakter daşıyır: "İqlim dəyişikliyi, ətraf mühitin qorunması ilə bağlı fərqli sahələrdə qəbul edilən qərarlar, aparılan müzakirələr qlobal baxımdan həm də COP29-dan faydalanmaq imkanı yaradacaq. Dünyanın aparıcı ölkələrinin nümayəndələri, o cümlədən onların liderləri həmin toplantıya qatılacaq. Bu, bir tərəfdən həmin ölkələr üçün müzakirələr baxımından da yeni tribunadır. Yəni fərqli ölkələrin bir araya gəlməsi fikir mübadiləsi aparılmasına imkan yaradacaq".

Deputat qeyd edib ki, COP29 həm də qlobal məsələlərin müzakirə olunması, bu istiqamətdə qərarların qəbul olunması baxımından əhəmiyyətlidir. Konfransda müzakirə olunacaq məsələlər bir ölkənin deyil, bütün dünyanın problemi kimi xarakterizə olunur. Ona görə qlobal sahədə əldə edilən nəticələr ölkələrin bundan faydalanmasına imkan verəcək. Bu fürsətdən təkcə inkişaf etmiş deyil, həm də inkişaf etməkdə olan ölkələr də yararlanacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 23 fevral, № 41.- S.7.